2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 286580 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,5 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,5 faiz artaraq 269855 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 94,2 faizini təşkil edir.

2018-ci ilin yanvar-mart aylarında muxtar respublikada tikinti sahəsində 9311 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 1,7 faiz artaraq 450 manat olmuşdur.